**Yadigarlarımız**

# Abidələrdə izi qalmış memar - Səfixan Qarabaği

**Şuşada dünyaya göz açmış görkəmli sənətkarlardan biri də memar Kərbəlayi Səfixandır. O, 1817-ci ildə anadan olub. Səfixanın atası gözəl əl qabiliyyətinə malik bənna olub. Hələ kiçik yaşlarından atasının yanında tikinti işlərinə maraq göstərən Səfixanın danışığından, hərəkətlərindən dərin zəkaya, ağıl və düşüncəyə malik olduğu sezilib. Ailəsi ilə birlikdə bir müddət Cənubi Azərbaycanda yaşadığı üçün burada bəzi şəhər və kəndlərdə tikilən binalarda Səfixanın imzası - daş möhürü indiyədək qalmaqdadır.**

XIX əsrin ortalarında Şuşanın gündən-günə çiçəklənərək inkişaf etməsi ailənin yenidən doğma Şuşaya qayıtmasına səbəb olub. Memarlıq şöhrəti hər yana yayılan Səfixanın Vətənə dönməsi həmyerlilərini xeyli sevindirib. Özünə Qarabaği təxəllüsünü götürüb, doğma vətənində sənətini böyük şövqlə davam etdirməyə başlayıb. Memarın üstünlüyü onda idi ki, o, inşa etdiyi tikililərdə Şərq memarlığına xas olan konstruktiv elementləri böyük ustalıqla yerli ənənələrlə əlaqələndirməyi bacarırdı.



Kərbəlayi Səfixanın Qarabağ memarlığının inkişafında, Şuşanın yenidən bərpa olunmasında xüsusi xidmətləri olub. Şuşanın rəmzinə çevrilmiş məşhur Gövhər ağa məscidinin xonçaşəkilli kitabəsində bu sözlər yazılıb: "Qarabağlı memar Kərbəlayi Səfixanın işidir (1883)".

Şuşada Aşağı Gövhər Ağa məscidi (1889-1890), məhəllə məscidləri, mədrəsələr, imarətlər, hamamlar və s. Kərbəlayi Səfixan tərəfindən inşa edilib. 1868-ci ildə Bərdədə tikdiyi İmamzadə məscidi Azərbaycanda ilk dördminarəli məbəddir. Şuşalı memarın yaratdığı gözəl sənət əsərlərinə Füzulidə, Ağdamda, Tərtərdə, digər rayonların kənd və qəsəbələrində də rast gəlinir.

Dövrünün ən məşhur memarlarından biri olan Səfixan Qarabaği yalnız Şuşada və başqa rayonlarımızda deyil, ölkəmizin hüdudlarından kənarda da abidələr tikmiş və bu abidələrdə silinməz izini qoymuşdur. Böyük sənətkarın Odessada, Aşqabadda, Orta Asiyada tikdiyi abidələr bu gün də tarixə şahidlik etməkdədir.

Kərbəlayi Səfixan Qarabaği 1910-cu ildə Saatlı məscidini təmir edərkən minarədən yıxılaraq vəfat edib. O, Şuşadakı "Mirzə Həsən" qəbiristanlığında dəfn edilib. Onun iki oğlu və bir qızı olub. Görkəmli memar Kərbəlayi Səfixanın izi, möhürü bir vaxtlar tikdiyi abidələrdə yaşayır. Xalq sənətkarını heç vaxt unutmur, onu daim xatırlayır.

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 23 fevral, № 41.- S.11.